# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun və Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin İKT-nin inkişafına yönəlmiş əhəmiyyətli layihələrin dəstəklənməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün 2-ci məqsədli birgə İKT müsabiqəsinin (EİF-RİTN-MQM-2/İKT-2-2013-7(13)) qalibi olmuş və yerinə yetirilmiş layihə üzrə**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Virtual aləmdə (internetdə) məşğulluğun (əmək bazarının) tədqiqi**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Məmmədov Şamil Taleh oğlu**
Qrantın məbləği: **45 000 manat**
Layihənin nömrəsi: **EİF-RİTN-MQM-2/İKT-2-2013-7(13)-29/12/1-M-02**
Müqavilənin imzalanma tarixi: **14 aprel 2014-cü il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 may 2014-cü il – 01 may 2015-ci il**

Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| 1 | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
| | Araşdırma, tədqiqat, sorğu, görüşlər |
| 2 | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | 100% |
| 3 | Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |
| | Layihənin mövzusu ölkəmizdə ilk dəfə lahiyə çərçivəsində tədqiq olunmuşdur. Müasir dövrdə İKT vasitələrinin dövlət orqanlarında geniş tətbiqi, “elektron hökümət” portalının fəaliyyətinin genişləndirilməsi, virtual əmək bazarının tətqiqini aktual etmişdir. Layihə icra müddətində virtual məkanda məşğulluğun tətqiqi aparılmış, nəticədə virtual əmək bazarının konyukturası öyrənilmiş, EİS-nin əmək bazarının öyrənilməsində, monitorinqinin aparılmasında imkanları araşdırılmışdır. Araşdırmaların nəticəsində həmçinin DMX-nə, işədüzəltmədə vasitəsilik fəaliyyəti ilə məşğul olan özəl agentliklərə, eləcə də işəgötürənlərə vakansiyaların axtarışı, təqdim olunması, işçi axtarışı sahəsində tövsiyyə xarakterli nümunəvi proqram təminatı hazırlanmışdır. |

| | |
|---|---|
| 4 | Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)* |
| | Rabitə dünyası qəzeti: №13 (854) 10 aprel 2015-ci il<br>http://rabitadunyasi.info.az/News/?newsID=1861&lang=az)<br>qoşma – 1 vərəq və 1 CD |
| 5 | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | Yoxdur |
| 6 | Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir) |
| | 2014-cü il 25 – 30 avqust, Türkiyə Cümhuriyyəti, İstanbul şəhəri, İstanbul Çalışma ve İş Kurumu İl Müdirlüyü<br>2014-cü il 26 və 27 sentyabr tarixlərində İstanbul Çalışma ve İş Kurumu İl Müdiri cənab Muammer Coşkun, İl müdirinin müavini Süleyman Çelik ilə görüşlərimiz olmuşdur.<br>Rəsmilər İstanbul Çalışma ve İş Kurumu İl müdürlüyünün işi, Türkiyə Cümhuriyyətində, eləcə də İstanbul şəhərində mövcud əmək bazarının vəziyyəti, iş axtarışı istiqamətində İŞKUR-un həyata keçirdiyi tədbirlər, internet vasitəsilə iş axtarışı imkanları barədə nümayəndə heyətimizə ətraflı məlumat vermişlər.<br>Görüş zamanı əsasən tədqiqat işinin mövzusu ilə əlaqədar virtual aləmdə məşğulluğun tədqiqi, əmək bazarı iştirakçılarının, o cümlədən işaxtaranların və işəgötürənlərin təkliflərinin qarşılanması baxımından İnternetin rolu, bu sahədə Türkiyə tərəfinin, eləcə də digər ölkələrin innovativ təcrübələri ətrafında maraqlı fikir mübadiləsi aparılmış, həmçinin İnternetdən istifadənin kütləvliyinin artım templərini nəzərə alaraq işəgötürənlərin və işaxtaranların İKT vasitələrindən istifadə etməklə əmək bazarı alətlərinə çıxış imkanlarının artırılması üçün Türkiyə tərəfinin gələcək təşəbbüsləri müzakirə edilmişdır.<br>Görüşlər zamanı həmçinin işsizlərin qəbulu, qeydiyyatı prosesi əyani nümayiş etdirilmişdir. Tərəfimizdən virtual aləmdə məşğulluğun tədqiqi məsələləri, işəgötürənlər tərəfindən təqdim olunan vakansiyaların, eləcə də işaxtaranların qeydiyyatının proqram təminatı maraq doğurduğuna görə bu məsələlər ətrafında geniş müzakirələr aparılmışdır.<br>2014-cü il 28 avqust tarixində isə YENİBİRİS.COM özəl işədüzəltmə agentliyində görüşlərimiz olmuşdur. Agentliyin fəaliyyət istiqamətləri, işədüzəltmə sahəsində olan təcrübələri, İnternet üzərindən göstərilən xidmətləri haqqında informasiyalar tərəfimizdən öyrənilmişdir.<br>Söhbət zamanı Türkiyə Cümhuriyyətində innovativ məşğulluğun təşəkkül tapması və tətbiqi, işəgötürənlərin və işaxtaranların İKT vasitələrindən istifadə etməklə işçi və iş axtarışı prosedurları, personalın seçilməsi, işçi heyyətinin keyfiyyətinin qiymətləndirilməsi və motivaiyası üçün insan resursları menecmentinin innovativ xüsusiyyətlərinin tətbiqi, yeni məşğulluq formalarının daha mütərəqqi üsullarının inkişaf etdirilməsi məqsədi ilə zəruri İKT resurslarının cəlb edilməsi, virtual aləmdə məşğulluğun təşəkkül tapması və inkişafı üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi ətrafında geniş müzakirələr aparılmışdır.<br><br>17 – 24 oktyabr 2014-cü il, Çexiya Respublikasının paytaxtı Praqa şəhəri, Əmək və Sosial Məslələr Nazirliyi<br>Görüş zamanı xidmətin işi, Çexiya Respublikasında, eləcə də Praqa şəhərində, həmçinin ayrı-ayrı əyalətlərdə mövcud əmək bazarının vəziyyəti, iş axtarışı istiqamətində nazirliyin həyata keçirdiyi tədbirlər, İnternet vasitəsilə iş axtarışı imkanları barədə nümayəndə heyətimizə ətraflı məlumat vermişlər.<br>Görüş zamanı əsasən tədqiqat işinin mövzusu ilə əlaqədar virtual aləmdə məşğulluğun tədqiqi, əmək bazarı iştirakçılarının, o cümlədən işaxtaranların və işəgötürənlərin təkliflərinin qarşılanması baxımından İnternetin rolu, bu sahədə Çexiya tərəfinin, eləcə də digər Avropa |

Birliyi ölkələrinin innovativ təcrübələri ətrafında maraqlı fikir mübadiləsi aparılmış, həmçinin İnternetdən istifadənin kütləvliyinin artım templərini nəzərə alaraq işəgötürənlərin və işaxtaranların İKT vasitələrindən istifadə etməklə əmək bazarı alətlərinə çıxış imkanlarının artırılması üçün Çexiya tərəfinin gələcək təşəbbüsləri, Avropa Birliyi çərçivəsində həyata keçirilən tədbirlər müzakirə edilmişdir.

22 oktyabr tarixində isə Çexiya Əmək Bürosunda bizə işsizlərin qəbulu, qeydiyyatı prosesi əyani nümayiş etdirilmişdir. Tərəfimizdən virtual aləmdə məşğulluğun tədqiqi məsələləri, işəgötürənlər tərəfindən təqdim olunan vakansiyaların, eləcə də işaxtaranların qeydiyyatının proqram təminatı maraq doğurduğuna görə bu məsələlər ətrafında geniş müzakirələr aparılmışdır.

Söhbət zamanı Çexiya Respublikasında innovativ məşğulluğun təşəkkül tapması və tətbiqi, işəgötürənlərin və işaxtaranların İKT vasitələrindən istifadə etməklə işçi və iş axtarışı prosedurları, personalın seçilməsi, işçi heyyətinin keyfiyyətinin qiymətləndirilməsi və motivasiyası üçün insan resursları menecmentinin innovativ xüsusiyyətlərinin tətbiqi, yeni məşğulluq formalarının daha mütərəqqi üsullarının inkişaf etdirilməsi məqsədi ilə zəruri İKT resurslarının cəlb edilməsi, virtual aləmdə məşğulluğun təşəkkül tapması və inkişafı üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi ətrafında geniş müzakirələr aparılmışdır.

13 – 19 dekabr 2014-cü il, Rusiya Federasiyası, Moskva şəhəri, Rusiya Federasiyasının Əmək və Məşğulluq üzrə Federal Xidmətinin Moskva şəhəri üzrə Cənub İnzibati Ərazisinin Məşğulluq Departamenti

Səfər çərçivəsində 2014-cü il 15 və 17 dekabr tarixlərində Rusiya Federasiyasının Əmək və Məşğulluq üzrə Federal Xidmətinin Moskva şəhəri üzrə Cənub İnzibati Ərazisinin Məşğulluq Departamentində görüşlər olmuşdur.

Görüşlərdə Rusiya Federasiyasının Əmək və Məşğulluq üzrə Federal Xidmətinin Moskva şəhəri üzrə Əmək və Məşğulluq Departamentinin Təşkilati Analitik İdarəsinin rəisi iqtisad elmləri doktoru Loktyuxina Natalya Viktorovna,
Rusiya Federasiyasının Əmək və Məşğulluq üzrə Federal Xidmətinin Moskva şəhəri üzrə Cənub İnzibati Ərazisinin Məşğulluq Departamentinin direktoru Qavrilov Feliks Anatolyeviç, direktor müavini Babayev Zaur Vaqifoviç, Departamentin peşəyönümü və psixoloji yardım şöbəsinin müdiri Karandaşeva Marina Gennadiyevna, eləcə də Departamentin İnformasiya texnologiyaları şöbəsinin əməkdaşları iştirak etmişdir.

Görüşün birinci günündə Əmək və Məşğulluq üzrə Federal Xidmətin fəaliyyəti, Rusiya Federasiyasında, eləcə də Moskva şəhərində, həmçinin Moskva şəhəri üzrə ayrı-ayrı inzibati ərazi dairələrində mövcud əmək bazarının vəziyyəti, iş axtarışı istiqamətində Federal Xidmətinin həyata keçirdiyi tədbirlər, İnternet vasitəsilə iş axtarışı imkanları barədə nümayəndə heyətimizə ətraflı məlumat vermişlər.

Görüş zamanı tədqiqat işinin mövzusu ilə əlaqədar virtual aləmdə məşğulluğun tədqiqi, əmək bazarı iştirakçılarının, o cümlədən işaxtaranların və işəgötürənlərin təkliflərinin qarşılanması baxımından İnternetin rolu, bu sahədə Rusiya tərəfinin innovativ təcrübələri ətrafında maraqlı fikir mübadiləsi aparılmış, həmçinin İnternetdən istifadənin kütləvliyinin artım templərini nəzərə alaraq işəgötürənlərin və işaxtaranların İKT vasitələrindən istifadə etməklə əmək bazarı alətlərinə çıxış imkanlarının artırılması üçün Rusiya tərəfinin gələcək təşəbbüsləri müzakirə edilmişdir.

17 dekabr tarixində isə Moskva şəhəri üzrə Cənub İnzibati Ərazisinin Məşğulluq Departamentində bizə işaxtaranların qəbulu, qeydiyyatı proseduru, bu sahə üzrə müvafiq "KATARSİS" proqramının imkanları əyani nümayiş etdirilmişdir.

Qloballaşan əmək bazarında müasir çağırışların formalaşdığı bir şəraitdə vətəndaşlara məşğulluq xidmətləri təklif edən dövlət və özəl məşğulluq xidmətlərinin fəaliyyətinin təkmilləşdirilməsi, onların işinin effektivliyinin artırılması yollarının və metodlarının aşkarlanması, innovativ məşğulluq tədbirlərinin həyata keçirilməsi sahəsində müxtəlif inkişaf mərhələsinə və ya fərqli idarəetmə sistemlərinə xas olan xidmətlərin praktik iş təcrübəsinin və fəaliyyətinin nəticələrinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

Bu baxımdan virtual aləmdə məşğulluğun tədqiqi məsələləri, işəgötürənlər tərəfindən

| | |
|---|---|
| | təqdim olunan vakansiyaların, eləcə də işaxtaranların qeydiyyatının proqram təminatı maraq doğurduğuna görə bu məsələlər ətrafında Rusiya Federasiyasında həyata keçirilən tədbirlər barədə geniş müzakirələr aparılmışdır.<br>Söhbət zamanı Rusiya Federasiyasında innovativ məşğulluğun təşəkkül tapması və tətbiqi, işəgötürənlərin və işaxtaranların İKT vasitələrindən istifadə etməklə işçi və iş axtarışı prosedurları, personalın seçilməsi, işçi heyyətinin keyfiyyətinin qiymətləndirilməsi və motivasiyası üçün insan resursları menecmentinin innovativ xüsusiyyətlərinin tətbiqi, yeni məşğulluq formalarının daha mütərəqqi üsullarının inkişaf etdirilməsi məqsədi ilə zəruri İKT resurslarının cəlb edilməsi, virtual aləmdə məşğulluğun təşəkkül tapması və inkişafı üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi ətrafında geniş müzakirələr aparılmışdır.<br>Rusiya tərəfi bu istiqamətdə özəl PRE-İNTERVİEW şirkətinin (www.preint.ru) təqdim etdiyi videorekrutinq sistemi barədə məlumat vermişdir. Bu, işaxtaranların, asinxron videoanketləndirmə sistemidir ki, şirkətlərin HR xidmətləri, şirkət rəhbərləri və top-menecerlər üçün nəzərdə tutulmuşdur. Namizədlər bu sistem vasitəsi ilə öz CV-lərini tərtib edərək sistemə yerləşdirmək imkanına malikdirlər. Videoanketlər maraqlı şirkətlər və şirkətlərin aidiyyəti mütəxəssisləri tərəfindən izlənməsi on-line rejimdə deyil, off-line rejimdə həyata keçirilir və sonradan şirkət üçün maraq kəsb edən namizədlər üzbəüz müsahibəyə dəvət olunurlar. Sistem özəl şirkət tərəfindən həyata keçirildiyi üçün ödənişlidir. |
| 7 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |
| | yoxdur |
| 8 | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | Dövlət Məşğulluq Xidmət tərəfindən 16.05.2014-cü il tarixdə Azərbaycan Turizm İnstitutunda "Karyerada ilk addım" devizi altında təşkil edilmiş tədbirlərdə və 23.05.2014-cü il tarixdə Səbail rayonunda keçirilmiş "Mini Əmək Yarmarkasında" iştirak edilmişdir.<br>İşaxtaran və işsiz vətəndaşların, xüsusilə də gənclərin sosial müdafiəsinin gücləndirilməsi, onların münasib işlə təmin olunması məqsədilə 17 dekabr 2014-cü il tarixində Qaradağ və Səbail rayon Məşğulluq Mərkəzləri tərəfindən təşkil olunmuş "Əmək Yarmarkası"nda iştirak edilmişdir. |
| 9 | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | Nəsimi rayon məşğulluq mərkəzində işəgtürənlərin iştirakı ilə təşkil olunan "Əhalinin məşğulluğunun təmin olunmasında işəgötürənlərin rolu" mövzusunda təşkil olunmuş dəyirmi masada iştirak edilmişdir. Dəyirmi masa çərçivəsində əmək bazarının mövcud vəziyyəti, əmək bazarının tələblərinə cavab verən keyfiyyətli kadrların hazırlanması, əmək bazarında tələb və təklifin konyukturası ətrafında müzakirələr aparılmışdır. Aparılan müzakirələr tətqiqat işlərinin işlənməsi üçün əhəmiyyətli olmuş və tətqiqat işində araşdırlma materialı kimi istifadə olunmuşdur. |
| 10 | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |
| | Yoxdur |
| 11 | Yerli həmkarlarla əlaqələr |
| | DMX-nin Yerli orqanlarla və sosial tərəfdaşlarla iş sektorunun müdiri Kamil Həsənov, DMX-nin Əmək bazarının təhlili sektorunun müdiri Fərid Həsənov, Nəsimi rayon Məşğulluq Mərkəzinin direktoru Şöhrət Məmmədov, Səbail rayon Məşğulluq Mərkəzinin direktoru Fərəc Qasımzadə |
| 12 | Xarici həmkarlarla əlaqələr |
| | İstanbul Çalışma ve İş Kurumu İl Müdürlüyünün il müdiri cənab Muammer Coşkun, İl müdir müavini Süleyman Çelik;<br>Rusiya Federasiyasının Əmək və Məşğulluq üzrə Federal Xidmətinin Hüquq İdarəsinin müavini - beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Korçemkina Olqa Nikolayevna;<br>Rusiya Federasiyasının Əmək və Məşğulluq üzrə Federal Xidmətinin Moskva şəhəri üzrə Əmək və Məşğulluq Departamentinin Təşkilati Analitik İdarəsinin rəisi iqtisad elmləri doktoru |

| | |
|---|---|
| | Loktyuxina Natalya Viktorovna;<br>Rusiya Federasiyasının Əmək və Məşğulluq üzrə Federal Xidmətinin Moskva şəhəri üzrə Cənub İnzibati Ərazisinin Məşğulluq Departamentinin direktoru Qavrilov Feliks Anatolyeviç;<br>Direktor müavini Babayev Zaur Vaqifoviç; Departamentin peşəyönümü və psixoloji yardım şöbəsinin müdiri Karandaşeva Marina Gennadiyevna;<br>Çexiya Respublikasının Əmək və Sosial Məslələr Nazirliyinin rəsmisi Pavel Yaneşek (pavel.janecek@mpsv.cz),<br>Çexiya Əmək Bürosunun əməkdaşları Yan Karmazin (jan.karmazin@uradprace.cz),Katerina Mrazkova (katerina.mrazkova@uradprace.cz) |
| 13 | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | Yoxdur |
| 14 | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | Yoxdur |
| 15 | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | Yoxdur |
| 16 | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
| | **Virtual məşğulluq - əməyin təşkilinin ən müasir forması**<br>http://rabitadunyasi.info.az/News/?lang=az&newsId=1861<br>Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və EİF-in elan etdiyi birgə İKT müsabiqəsi çərçivəsində əmək bazarı tədqiq edilib<br>Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (RYTN) və Prezident yanında Elmin İnkişafı Fondunun (EİF) elan etdiyi ikinci məqsədli birgə İKT müsabiqəsindən uğurla keçmiş layihələr üzrə işlər davam etdirilir. İKT-nin inkişafına yönəlmiş əhəmiyyətli layihələrin dəstəklənməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün müsabiqənin qalib layihələrindən biri də "Virtual aləmdə (internetdə) məşğulluğun (əmək bazarının) tədqiqi"dir. Layihənin (EİF-RİTN-MQM-2/İKT-2-2013-7(13)-29/12/1-M-02) müəllifi Şamil Məmmədov layihə çərçivəsində apardığı tədqiqatları "Rabitə dünyası" ilə bölüşüb.<br>Müasir dövrdə internet məkanı və onunla bağlı xidmətlər bütün əhali qrupları tərəfindən müvəffəqiyyətlə mənimsənilir<br>Bu gün dünyanın milyonlarla kompüterini birləşdirən qlobal internet şəbəkəsi özünün forma və tərkibi baxımından cürbəcür, miqdarca sərhədsiz olan şəbəkə resursları ilə cəmiyyətin sosial təşkilinin ayrılmaz hissəsinə çevrilib. Bu şəbəkə genişləndikcə internetin imkanlarını da artırıb, yeni internet xidmət növləri yaradılıb. İnternet vasitəsi ilə dünyanın istənilən nöqtəsində olan insanlarla virtual ünsiyyət qurmaq, məktublaşmaq, onlayn rejimdə keçirilən müxtəlif forumlarda iştirak etmək, kitab, jurnal və qəzetlərin elektron versiyalarını oxumaq, dükanlardan alış-veriş etmək, radioya qulaq asmaq, televizor verilişlərinə baxmaq, gündəlik hadisələr haqqında operativ məlumatlar almaq olar: "İnternetin nəhəng məlumat bazası demək olar ki, hər saniyə yeni xəbərlərlə zənginləşir. İnternetin yaranmasında əsas rolu ötən əsrin 60-cı illərində ABŞ-ın Müdafiə Nazirliyinin hərbi məqsədlər üçün etibarlı rabitə sistemi yaratmaq qərarı oynayıb. Müasir dövrdə isə internet məkanı və onunla bağlı xidmətlər bütün əhali qrupları tərəfindən müvəffəqiyyətlə mənimsənilir. Bu, müasir dövrün inkişaf tendensiyaları ilə əlaqədar olaraq həm İnternet xidmətlərinin geniş şəkildə müyəssərliyi, zəruri informasiya bolluğu, vizual cəlbediciliyi, həm də ictimai münasibətlərin reallaşdırılması, sabit və davamlı kommunikativ əlaqələrin qurulması imkanlarınlın mövcudluğu ilə şərtlənir".<br>*Virtual məkanın zəmanəmizə məxsus üstünlükləri*<br>İnternet xidmətlərinin - verilənlərin (informasiyanın) internetdən çağırılmasının bir çox üsulları var: "İnternet xidmətləri adlanan bu üsullara www; e-mail; FTP; telekonfranslar daxildir. www (World Wide Web) - ümumdünya hörümçək toru adlanmaqla internet vasitəsi ilə ötürülən məlumatlardan ibarətdir. E-mail (Electronic Mail) və ya elektron poçt - İnternet şəbəkəsinə daxil olmuş insanların bir-birilə əlaqə saxlamağına şərait yaradır. FTP (File Transfer Protocol) - faylları ötürmə protokoludur. Burada faylların bir kompüterdən digərinə ötürülməsi reqlamentləşdirilir. Telekonfranslar (NetMeeting) - "Microsoft NetMeeting" proqramı vasitəsi ilə |

həyata keçirilir. Bu proqram uzaq məsafədə səs və video əlaqələrin təşkili, eləcə də İnternet vasitəsilə görüş və konfransların keçirilməsi цчцн nəzərdə tutulub". Qeyd olunanlarla yanaşı, virtual məkanın zəmanəmizə məxsus digər üstünlüyü də insanlar üçün virtual (məsafədən və ya distant) məşğulluq imkanları yaratmasından ibarətdir: "Virtual məşğulluq - əməyin təşkilinin müasir forması olmaqla işçiyə öz vəzifə funksiyalarını işəgötürənin müəyyən etdiyi iş yerindən kənarda icra etməyə imkan verir. Bu baxımdan əmək fəaliyyətinin klassik atributu mənasını daşıyan iş yeri və iş vaxtının vəhdəti prinsipi artıq öz əhəmiyyətini itirmiş olur. İqtisadi fəaliyyətin virtuallaşdırılmasının mahiyyəti ondan ibarətdir ki, müasir texniki vasitələrdən istifadə edərək insanlar real obyektlərlə deyil, onların əksi və simvolları ilə işləmək imkanı əldə edirlər".

Əmək fəaliyyətinin virtual təşkilinin klassik formadan fərqləndirici xüsusiyyətləri

Ş.Məmmədovun fikrinə görə, virtual təmas, əlaqə dünən və ya bu gün yaranmayıb: "O, əslində əlaqə vasitələri kimi poçt - teleqraf - telefon - faks - İnternetin təşəkkül tapması ilə tədrici inkişaf mərhələsi keçib. Məhz kompüter texnologiyasının inkişafı real vaxt rejimində nəinki real obyektləri simulyasiya etməyə, həmçinin onların fəaliyyətyini real vaxt rejimində canlandırmağa imkan yaradıb. İnternet həmçinin ənənəvi iqtisadi şərait üçün mahiyyətcə yeni, vahid virtual məkan yaratmaqla klassik bazara xas iştirakçılar formalaşdırır. Əmək fəaliyyətinin virtual təşkilinin klassik formadan fərqləndirici xüsusiyyətləri kimi bunları sadalamaq olar: əmək fəaliyyətinin həyata keçirilməsi üçün müvafiq kompüter və informasiya kommunikasiya texnologiyalarının mövcudluğunun zəruriliyi; əmək fəaliyyətinin intellektual səviyyəsinin artması; ayrı-ayrı elementlər arasında şəbəkələşmə imkanlarının mövcudluğu; maddi aktivlərin autsorsinq prinsipi əsasında formalaşdırılması; əmək fəaliyyəti prosesində şüurlarda formalaşmış klassik əmək kollektivi formatının olmaması; işin, fəaliyyətin İnternet şəbəkəsi vasitəsi ilə real vaxt rejimində həyata keçirilməsi; identifikasiyalaşdırılmış maddi strukturun olmaması".

Virtual məşğulluğun təşəkkül tapması ilə işəgötürənlər də üstünlüklər əldə edirlər

Layihə rəhbəri hesab edir ki, virtual əmək fəaliyyəti formasının təşəkkül tapması nəticəsində işəgötürənlər də əmək məhsuldarlığına müsbət təsir edən bir sıra üstünlüklər əldə edirlər. Bu üstünlüklərə əmək fəaliyyəti ilə əlaqədar istehsalat sahələrinin və bununla əlaqədar xərclərin azalması; əmək fəaliyyətinin yerinin və vaxtının optimallaşdırılması nəticəsində işçilərin əməyinin məhsuldarlığının artması; işlə bağlı ezamiyyələrə ayrılan vaxtın və xərclərin azalması; işəgötürənlərin xarici faktorlara çevik reaksiyası, işçilərin sayının operativ tənzimlənməsi; yaşadığı və fəaliyyət göstərdiyi məkandan asılı olmayaraq keyfiyyətli mütəxəssislərin işə cəlb olunması; məhsulun və göstərilən xidmətlərin təklif olunması üçün arealın genişlənməsi; müştərilərə maksimum yaxınlaşmaq imkanı; həssas əhali qruplarının, o cümlədən əlilliyi olan şəxslərin, qadınların, gənclərin, bu qrupa aid olan digərlərinin məşğulluq imkanlarının artırılması; ekoloji durumun yaxşılaşması və sair daxildir.

Frilanserlər İKT mütəxəssisləri arasında daha geniş yayılıb

Layihə rəhbərinin sözlərinə görə, hazırda konkret iş yerinə bağlı olmadan, İnternetdən istifadə etməklə məşğulluğun təmin olunması sahəsində daha çox təşəkkül tapmış fəaliyyət növü - frilans (frilans - ingiliscə freelance sözündən), bu sahədə fəaliyyət göstərənlər isə frilanserlər adlanır, sərbəst məslək sahibləri anlamını verir: "Frilanserlər İKT mütəxəssisləri arasında daha geniş yayılıb. Lakin peşə xüsusiyyətləri nəzərə alınmaqla digər peşə mənsubları, o cümlədən mühasiblər, fotoqraflar, hüquqşünaslar, arxitektorlar, müxtəlif səpкili ekspert və məsləhət xidmətləri göstərən şəxslər, dizaynerlər (bannerlərin, loqotiplərin, maketlərin, saytların hazırlanması), jurnalistlər, kütləvi informasiya işçiləri (səhifəbağlayanlar, redaktorlar, korrektorlar, təpcüməçilər) üçün bu sahədə geniş imkanlar açılmaqdadır. Beləliklə, frilans insanlara öz bilиk və bacarıqlarını reallaşdırmağa, sərbəst qrafiklə fəaliyyət göstərməklə əlavə gəlir əldə etməyə, eləcə də cəmiyyətin fəal üzvц kimi özünü güvənli hiss etməyə imkan

yaradır".

Əmək fəaliyyətində İKT vasitələrindən geniş istifadə olunması müasir innovativ metodlardan istifadəni zəruri edir

Layihə rəhbəri virtual məşğulluq üçün xarakterik olan digər xüsusiyyətləri də qeyd edib: "Fiziki əməyin qismən azalması. Virtuallaşma prosesində əməyin predmetlərinə və üsullarına fiziki təsirlərin rolu xeyli dərəcədə azalır, daha çox əqli fəaliyyət elementləri ön plana çıxır. Qeyd olunduğu kimi, virtual məşğulluq əqli fəaliyyətlə, informasiyanın əldə olunması, emalı və ötürülməsi ilə əlaqədar olur. Virtual iqtisadi münasibətlərdə əvvəllər məlum olmayan, yeni informasiya resurslarının və sistemlərinin təşəkkül tapması, formalaşması həyata keçirildiyi üçün işçi yeniliklərə, innovasiyalara meyilli olmalı, daim öz üzərində işləməli, peşəkar biliklərinin və səriştələrinin artırılmasına çalışmalıdır. Əmək fəaliyyətində İKT vasitələrindən geniş istifadə olunması, virtual məşğulluğun mahiyyətindən doğur və müasir innovativ metodlardan istifadəni zəruri edir". Digər məqam əmək fəaliyyətində İKT-dən istifadə olunması və daim yenilənən peşəkar informasiya məkanınıн formalaşması yolu ilə işçi qüvvəsinin peşəkarlıq səviyyəsinin artmasıdır. Yeni peşələrin meydana gəlməsi, İKT vasitələrinin tətbiqi və mütəmadi inkişafı işçilərin peşəkar bilik və bacarıqlarının inkişafını da sürətləndirir. Virtual iqtisadi münasibətlər sistemində yeni əmək fəaliyyəti növü - informativ əmək fəaliyyəti formalaşır. İqtisadi ədəbiyyatda informativ əmək fəaliyyəti, fəaliyyət sahəsi informasiya resurslarının istehsalı və istismarı ilə əlaqəli olan münasibətlər sistemidir. Bu baxımdan da virtual işçilərin əmək fəaliyyəti informasiya və intellektual resursların, şəxsi istifadə və ictimai tələblər üçün zəruri olan informasiya məhsullarına və xidmətlərinə çevrilməsi kimi xarakterizə oluna bilər.

Virtual işçi kompüter, modem, mobil telefon olduğu təqdirdə virtual iş yeri təşkil etməklə öz fəaliyyətini istənilən məkandan həyata keçirə bilir.

Virtual məşğulluğun digər xüsusiyyəti də çevikliyin artmasıdır. Virtual məşğulluq formasında məkan və zaman baxımından çeviklik imkanları daha da genişlənir. Məkan baxımından çeviklik onda təzahür edir ki, virtual işçi kompüter, modem, mobil telefon olduğu təqdirdə virtual iş yeri təşkil etməklə praktiki olaraq öz fəaliyyətini istənilən məkandan həyata keçirə bilir: "Zaman baxımından çeviklik isə ondan ibarətdir ki, virtual məşğulluq adətən müvəqqəti xarakter daşıyır, natamam məşğulluq formasında, hər hansı bir sifarişin, işin icrası formasında həyata keçirilir. Virtual məşğulluqda işçi ilə işəgötürən və ya sifarişçi ilə sosial-əmək münasibətləri əsas etibarьı ilə müddətli əmək müqavilələri və ya mülki-hüquqi müqavilələr bağlanmaqla tənzimlənir".

Virtual məşğulluğun daha geniş yayılmış formaları

Ş.Məmmədov virtual məşğulluğun daha geniş yayılmış formalarından da söz açıb. Məsələn, ev şəraitində virtual məşğulluq - bu zaman işçi öz əmək funksiyalarını evində olmaqla icra edir. Mobil virtual məşğulluq - virtual məşğulluğun elə bir formasıdır ki, işçi öz əmək funksiyalarını evdə və ya konkret iş yerindən, ofisdən kənarda həyata keçirir. Ticarət və sığorta agentləri, müxtəlif avadanlıqlara xidmət üzrə mühəndislər, daim noutbuk və mobil telefonla işlərin idarə olunmasını həyata keçirən layihə rəhbərləri mobil virtual işçi hesab olunurlar: "Əlavə virtual iş - məşğulluğun elə bir növüdür ki, virtual işin payı işçinin ənənəvi məşğulluğunda həftə ərzində bir iş günündən çox olmur. İxtisaslaşmış virtual mərkəzdə virtual iş - bu iшin mahiyyəti ondan ibarətdir ki, işçi öz fəaliiyətini xüsusi olaraq yaradılmış və müvafiq avadanlıqlarla təhciz edilmiş mərkəzlərdə həyata keçirirlər. Beləliklə, virtual məşğulluğun əsas xüsusiyyətlərini təhlil edərək belə qənaətə gəlmək olar ki, virtual məşğulluq işçinin ənənəvi ofisdən kənarda, çevik iş rejimində, əməyin predmeti kimi müvafiq əlaqə vasitələri və informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə həyata keçirdiyi məşğulluq növüdür".

Layihə çərçivəsində proqram təminatı hazırlanmışdır. Proqram təminatı PHP veb proqramlaşdırma dilində hazırlanmışdır.
Qoşma – 1 DVD

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Müşavir**
Babayeva Ədilə Əli qızı

____________________
*(imza)*
“24” 06 2015-ci il

**Baş məsləhətçi**
Daşdəmirova Xanım Faiq qızı

____________________
*(imza)*
“24” 06 2015-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Məmmədov Şamil Taleh oğlu

____________________
*(imza)*
“24” 06 2015-ci il

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA

# ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun və Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin İKT-nin inkişafına yönəlmiş əhəmiyyətli layihələrin dəstəklənməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün 2-ci məqsədli birgə İKT müsabiqəsinin (EİF-RİTN-MQM-2/İKT-2-2013-7(13)) qalibi olmuş və yerinə yetirilmiş layihə üzrə**

## ALINMIŞ NƏTİCƏLƏRİN ƏMƏLİ (TƏCRÜBİ) HƏYATA KEÇİRİLMƏSİ VƏ LAYİHƏNİN NƏTİCƏLƏRİNDƏN GƏLƏCƏK TƏDQİQATLARDA İSTİFADƏ PERSPEKTİVLƏRİ HAQQINDA MƏLUMAT VƏRƏQİ

**(Qaydalar üzrə Əlavə 16)**

Layihənin adı: **Virtual aləmdə (internetdə) məşğulluğun (əmək bazarının) tədqiqi**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Məmmədov Şamil Taleh oğlu**
Qrantın məbləği: **45 000 manat**
Layihənin nömrəsi: **EİF-RİTN-MQM-2/İKT-2-2013-7(13)-29/12/1-M-02**
Müqavilənin imzalanma tarixi: **14 aprel 2014-cü il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 may 2014-cü il – 01 may 2015-ci il**

### 1. Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi

| | |
|---|---|
| 1 | Layihənin əsas əməli (təcrübi) nəticələri, bu nəticələrin məlum analoqlar ilə müqayisəli xarakteristikası |
| | Layihənin mövzusu ölkəmizdə ilk dəfə lahiyə çərçivəsində tədqiq olunmuşdur. Müasir dövrdə İKT vasitələrinin dövlət orqanlarında geniş tətbiqi, "elektron hökümət" portalının fəaliyyətinin genişləndirilməsi, virtual əmək bazarının tətqiqini aktual etmişdir. Layihə icra müddətində virtual məkanda məşğulluğun tətqiqi aparılmış, nəticədə virtual əmək bazarının konyukturası öyrənilmiş, EİS-nin əmək bazarının öyrənilməsində, monitorinqinin aparılmasında imkanları araşdırılmışdır. Araşdırmaların nəticəsində həmçinin DMX-nə, işədüzəltmədə vasitəsilik fəaliyyəti ilə məşğul olan özəl agentliklərə, eləcə də işəgötürənlərə vakansiyaların axtarışı, təqdim olunması, işçi axtarışı sahəsində tövsiyyə xarakterli nümunəvi proqram təminatı hazırlanmışdır. |
| 2 | Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi haqqında məlumat (istehsalatda |

| | |
|---|---|
| | təbiq (təbiqin aktını əlavə etməli); tədris və təhsildə (nəşr olunmuş elmi əsərlər və s. – təhsil sisteminə təbiqin aktını əlavə etməli); bağlanmış xarici müqavilələr və ya beynəlxalq layihələr (kimlə bağlanıb, müqavilənin və ya layihənin nömrəsi, adı, tarixi və dəyəri); dövlət proqramlarında (dövlət orqanının adı, qərarın nömrəsi və tarixi); ixtira üçün alınmış patentlərdə (patentin nömrəsi, verilmə tarixi, ixtiranın adı); və digərlərində) |
| | Araşdırmaların nəticəsində yaradılmış proqram təminatından DMX-də, işədüzəltmədə vasitəsilik fəaliyyəti ilə məşğul olan özəl agentliklərdə, eləcə də işəgötürənlər tərəfindən vakansiyaların yerləşdirilməsi və təqdim olunması, işçi axtarışı sahəsində istifadə oluna bilər |

2. **Layihənin nəticələrindən gələcək tədqiqatlarda istifadə perspektivləri**

| | |
|---|---|
| **1** | Nəticələrin istifadəsi perspektivləri (fundamental, təbiqi və axtarış-innovasiya yönlü elmi-tədqiqat layihə və proqramlarında; dövlət proqramlarında; dövlət qurumlarının sahə tədqiqat proqramlarında; ixtira və patent üçün verilmiş ərizələrdə; beynəlxalq layihələrdə; və digərlərində) |
| | Layihənin icrasının nəticəsində hazırlanmış proqram təminatın işçi və işəgötürən arasında olan əmək münasibətlərini real vaxt rejimində həyata keçirilməsilə vaxt itkisinin qarşısını almağa imkan verəcək. Virtual əmək bazarının tədqiqində əhəmiyyətli rol oynayacaq. |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Müşavir**
Babayeva Ədilə Əli qızı

________________
*(imza)*
“24” 06 2015-ci il

**Baş məsləhətçi**
Daşdəmirova Xanım Faiq qızı

________________
*(imza)*
“24” 06 2015-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Məmmədov Şamil Taleh oğlu

________________
*(imza)*
“24” 06 2015-ci il

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun və Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin İKT-nin inkişafına yönəlmiş əhəmiyyətli layihələrin dəstəklənməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün 2-ci məqsədli birgə İKT müsabiqəsinin (EİF-RİTN-MQM-2/İKT-2-2013-7(13)) qalibi olmuş və yerinə yetirilmiş layihə üzrə**

## ALINMIŞ ELMİ MƏHSUL HAQQINDA MƏLUMAT
## (Qaydalar üzrə Əlavə 17)

Layihənin adı: **Virtual aləmdə (internetdə) məşğulluğun (əmək bazarının) tədqiqi**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Məmmədov Şamil Taleh oğlu**
Qrantın məbləği: **45 000 manat**
Layihənin nömrəsi: **EİF-RİTN-MQM-2/İKT-2-2013-7(13)-29/12/1-M-02**
Müqavilənin imzalanma tarixi: **14 aprel 2014-cü il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 may 2014-cü il – 01 may 2015-ci il**

Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

### 1. Elmi əsərlər (sayı)

| № | Tamlıq dərəcəsi / Elmi məhsulun növü | Dərc olunmuş | Çapa qəbul olunmuş və ya çapda olan | Çapa göndərilmiş |
|---|---|---|---|---|
| 1. | Monoqrafiyalar | | | |
| | həmçinin, xaricdə çap olunmuş | | | |
| 2. | Məqalələr | 1 | 1 | 1 |
| | həmçinin xarici nəşrlərdə | | | |
| 3. | Konfrans materiallarında məqalələr | | | |

| | | | | |
|---|---|---|---|---|
| | O cümlədən, beynəlxalq konfras materiallarında | | | |
| 4. | Məruzələrin tezisləri | | | |
| | həmçinin, beynəlxalq tədbirlərin toplusunda | | | |
| 5. | Digər (icmal, atlas, kataloq və s.) | | | |

## 2. İxtira və patentlər (sayı)

| № | Elmi məhsulun növü | Alınmış | Verilmiş | Ərizəsi verilmiş |
|---|---|---|---|---|
| 1. | Patent, patent almaq üçün ərizə | | | |
| 2. | İxtira | | | |
| 3. | Səmərələşdirici təklif | | | |

## 3. Elmi tədbirlərdə məruzələr (sayı)

| № | Tədbirin adı (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s.) | Tədbirin kateqoriyası (ölkədaxili, regional, beynəlxalq) | Məruzənin növü (plenar, dəvətli, şifahi, divar) | Sayı |
|---|---|---|---|---|
| 1. | Karyerada ilk addım | Ölkədaxili | Şifahi | 1 |
| 2. | Əhalinin məşğulluğunun təmin olunmasında işəgötürənlərin rolu | Ölkədaxili | Plenar | 1 |
| 3. | | | | |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Müşavir**
Babayeva Ədilə Əli qızı

____________________
*(imza)*
"24" 06 2015-ci il

**Baş məsləhətçi**
Daşdəmirova Xanım Faiq qızı

____________________
*(imza)*
"24" 06 2015-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Məmmədov Şamil Taleh oğlu

____________________
*(imza)*
"24" 06 2015-ci il